# Böyük satirik Qasım bəy Zakir – 240



***Rahi-müsibətdə keçmişəm candan,***
***Müxənnətdir qorxan bir qaşıq qandan!***
***Ehtiyatım yoxdur paşadan, xandan,***
***Analar doğubdur şiri-nər məni.***

*(Daycest)*

**Bakı – 2024**

*Azərbaycanın görkəmli satirik şairi Qasım bəy Zakir təndiqi realizmin təməl daşını qoyanlardan biri, dövrünün qabaqcıl fikir və meyillərinin ifadəçisi olmuşdur.*

*Q.Zakir 1784-cü ildə Qarabağ mahalının Şuşa şəhərində tanınmış bəy ailəsində anadan olmuşdur. O, Şuşa ruhani məktəbində fars dilində mükəmməl təhsil almış, Firdovsi, Xəyyam, Xaqani, Nizami, Sədi, Cəlaləddin Rumi kimi böyük klassiklərin əsərlərindən bəhrələnmişdir.*
*Q.Zakirin yaradıcılığı maarifçi satiranın inkişafında ayrıca mərhələ təşkil etmişdir. Şair öz əsərləri ilə cəmiyyətin sağlam yollarla inkişafına, xüsusilə maariflənməsinə və bu yolla cəhalətdən qurtularaq bəy, məmur özbaşınalığına qarşı çıxmalarına çalışmışdır. Onun bu istiqamətdə yazdığı satiralar, o cümlədən "Aslan, qurd və çaqqal", "Tülkü və qurd" təmsilləri, "Dərviş və fəqir" mənzum hekayəsi və başqa yazıları 1988-ci ildə Tiflisdə nəşr edilən "Ana dili" dərsliyinə salınmışdır.*

*Böyük satirik ictimai və siyasi məsələlərə də açıq gözlə baxmış, hər cür yaraların sağalmasına cəhd etmiş, "məzlumun qanını içənlərə" nifrət etmiş, onlara qənim kəsilmiş, xalqın nicatını yalnız maariflənməkdə görmüşdür. İctimai haqsızlıqlara qarşı amansız və mübariz olmaq ruhu şairin maarifçi realist və satirik şeirlərinin diqqəti cəlb edən xüsusiyyətlərindəndir. Satirikin əsasən, ifşaçı ruhda olan realizmi, kəskin satirası, yaradıcılığında xalq həyatına yaxınlıq, feodal təhkimçi mühitdə kütlənin elmdən uzaq tutulmasına qarşı çıxması, yaşadığı mühitdəki nöqsanlara dərin istehzalı münasibət onu müasirlərindən fərqləndirirdi.*

*"Açıq və aydın dildə" yazıb-yaradan Q.Zakirin leksikonunun əsasını və canını ümumxalq sözləri təşkil edir. O, Azərbaycan dilinin ən gözəl xüsusiyyətlərindən, incəliklərindən məharətlə istifadə etmiş, dildə olan məsələlərdən, idiomatik ifadə və frazeoloji birləşmələrdən, ayrı-ayrı sözlərin xalq dilində işlədilən məna çalarlarından bol, həm də yerli-yerində işlətmişdir. Bütün bunlar şairin fikrini zənginləşdirmiş, sözün təsir qüvvəsini artırmış, həm də onu obrazlı, təbii və sadə etmişdir.*

*Q.Zakir görkəmli bir sənətkar kimi özündən sonrakı realist şeirimizin inkişafına müsbət təsir etmişdir. Bu təsir S.Ə.Şirvani və eləcə də M.Ə.Sabir yaradıcılığında özünü göstərmişdir.*
*XIX əsr realist Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Q.Zakirin ədəbi irsi xalqımızın mədəniyyət xəzinəsinə daxil olmuşdur. Onun yaradıcılığı orta və ali məktəb proqramlarında, dərsliklərdə, müntəxəbatlarda geniş yer tutmuşdur. Onun maarifçilik fəaliyyəti, sonralar xələfləri, o cümlədən dostu M.F.Axundov tərəfindən davam və inkişaf etdirilmişdir. Həmin tarixi şəxsiyyətlərin, görkəmli ziyalıların elm, təhsil, maarifin inkişafı, dilimizin saflığı uğrunda apardıqları mübarizələrin məntiqi nəticəsidir ki, hazırda bu sahədə böyük irəliləyişlərin, inkişafın şahidi oluruq.*

***Görkəmli şəxsiyyətlər Qasım bəy Zakir haqqında***

*“Qasım bəy Zakir həqiqi bir milli şair imiş. Öz əsrinin aynası olubdur və... məişəti-milliyyəsini necə ki var imiş eynilə yazıb, bizim üçün böyük bir yadigar qoyubdur. Öz əsrində şayani-diqqət olmuş olan bir şey qoymayıbdır ki, ona əl aparmamış olsun. O vaxtın adamlarının adabu-əxlaqını və dolanacaqlarının əsasını mahir nəqqaş kimi özlərinə məxsus rənglərlə çəkib bizə göstərir. Məişətin bir-bir sinif və təbaqatına ətraflı nəzər yetirib, sairlərin gözlərinə görsənməyən şeyləri görüb, təftiş və tənqid edibdir”.*

*“Qasım bəy Zakir XIX əsr realist ədəbiyyatımızın inkişafına müsbət təsir göstərən və ona istiqamət verən maarifçi ziyalılardan olmuşdur”.*

***Firidun bəy Köçərli***

*“Şuşada... Məşhur şair, amansız satirik, öz şeirlərində Azərbaycan feodal təbəqələrinin iyrəncliyinə gülən, onları ifşa edən Qasım bəy Zakir yaşayıb-yaratmışdır. Öz xalqının düşüncələrinin hakimi, onun sevimlisi olan şair Vaqif oldu, lakin onun şeir bayrağını... Zakir ələ aldı...”*

***Səməd Vurğun***

*“Otuz il bundan əqdəm cənub Zakir mərhum Qasım bəy Qarabağı yazan həcvlər ilə indi hadiyul-Muzəllin yazan həcvlərlə baxan görər ki, onların təfavutu çoxdur. İndi yazılan həcvlər məst olan çəkməçi-danışığına oxşadığına nəinki onları çap etmək olmur, hətta adam olan kəs onları oxuyanda əti ürpənir”.*

***Nəcəf bəy Vəzirov***

*"İlk maarifçilər tərəfindən əsası qoyulan realist ədəbiyyat Q.Zakir, B.Şakir, M.B.Nadim, M.C.Miskin və başqalarının yaradıcılığında tənqidi realizmə doğru inkişaf etməyə başladı..."*

***Fuad Qasımzadə***

*"Qasım bəy Zakir və Mirzə Fətəli Axundov arasındakı dostluq onların öz yaradıcılıq inkişafına və ümumiyyətlə, Azərbaycanda maarifçi, realist ədəbiyyatın, demokratik fikirlərin get-gedə güclənməsinə mühüm təsir göstərmişdir".*

***Əziz Mirəhmədov***

*"Zakir "zülmət səltənətində" xalqa bəlanın haradan və kimlərdən gəldiyini görürdü. Onun şeirləri ana dilimizin gözəl məziyyətlərini əks etdirir. Mən sizi onları öyrənməyə çağırıram".*

*"...Azərbaycan balaları nəinki yalnız Puşkinin, hətta Şekspirin və Şillerin əsərlərini öyrənməlidirlər. Lakin bu şərtlə ki, ən əvvəl həqiqi proletar şairi, doğma Sabirin zəhmli, mübariz şeirlərini həmçinin... xalq şairləri Vaqifin, Zakirin, Vidadinin şeirlərini öyrənmiş olsunlar. Belə etsələr, bu tamamilə marksizm ruhuna uyğun olar".*

***Nəriman Nərimanov***

*"Zakirin yaradıcılığında realizm daha da büllurlaşır, kəskinləşir, ictimai mübarizədə bir vasitə olur... Zakirin yaratdığı ədəbiyyat gələcək qüdrətli demokratik ədəbiyyatın ilk bünövrə daşı idi".*

*"XIX əsrdə Azərbaycan ədəbiyyatının böyük simalarından biri Qasım bəy Zakir Vaqifin tutduğu yolu davam etdirir. Zakirin yaradıcılığında realizm daha da billurlaşır, kəskinləşir, ictimai mübarizədə bir vasitə olur. Azərbaycan ədəbiyyatında ictimai satira Zakirin yaradıcılığı ilə qüvvətli bir şəkil almışdır. Bu satira o zamanki Azərbaycanda hakim ictimai meylə qarşı müxalifəti ifadə edən bir satiradır. Zakir XIX əsrin birinci yarısından başlayaraq xüsusi sürətlə dağılmaqda olan Şərq feodal-patriarxal həyatı və quruluşunun ziddiyyətlərinin daha obyektiv və dərindən ifadə etmişdir".*

***Mirzə İbrahimov***

*"XVIII əsrdə yaradılmış olan folklor əsaslı ədəbi dil XIX əsrdə bir az da inkişaf etdirildi, XIX əsrin dil xüsusiyyətləri ilə dolğunlaşdırıldı. Bu dövrdə Şakir, Zakir, Nəbati və sairə bir sairə bir çox qoşmalar, dördləmələr yazıb bu stili, bu dili ən gözəl şeir dili olaraq işlətməyə başladılar. Buna görə də bu dil, bu qoşma dili XIX əsrdə, xüsusən Zakir vasitəsilə daha da mükəmməlləşdirilmişdir. Zakirin qoşmalarında asan və xalq sözlərindən yaradılmış bədii ifadələr, metaforalar, obrazlar daha çox və mükəmməldir".*

***Ə.Dəmirçizadə***

*"Q. Zakir M. P. Vaqifdən sonrakı ədəbiyyatın əsas hərəkətverici qüvvəsi olmuşdur. Mən Q. Zakirin yaradıcılığını yüksək qiymətləndirirəm".*

***Adolf Berje***

*"Qasım bəy Zakirin yaradıcılığı özündən əvvəlki Azərbaycan ədəbiyyatının qanuni inkişafıdır. Ağlın, zəkanın təntənəsinə inam Zakir poeziyasının mayasını təşkil edir".*

***Əbdül Əzizov***

*"Ana dili hər bir sənətkarın əlində fikrini hissini düzgün, dolğun əks etdirmək üçün əsas silahdır. Zakir bu silaha yiyələnmiş, Vaqifdən sonra Azərbaycan bədii dilini daha da zənginləşdirmiş və incələşdirmişdir".*

***K. Məmmədov***

*"Qasım bəy Zakirin bir çox nəğmələri yaxşı tərcümə olunarsa, məzmun və forma cəhətdən ən yeni alman poeziyası ilə müqayisə edilə bilər..."*

***N. İ. Qulak***

*"Satiranı əvvəlki məzmunundan şəxsi mənafe və əhvali ruhiyyədən, çox vaxt qərəzkarlıqdan irəli gələn tənqiddən xilas edib və ona ictimai rəng vermək böyük sənətkarlıq qüdrəti tələb edirdi. Belə bir işə Q. Zakir cəsarətlə girişdi və satiranı müstəqil cərəyan halına saldı. Zakir satiranı yalnız ideya və məzmun cəhətdən yox, sənətkarlıq cəhətdən də irəli aparmış və onu keçmiş bayağılıqdan xilas etmişdir".*

***Ə. Mirəhmədov***

*"Öz zəmanəsi ilə sıx bağlı olan şair xalqının milli ruhunu, adət - ənənəsini, məişətini, onun təfəkkür tərzini yaxşı bilirdi. Elə buna görə də bizim sənətsevər xalqımız Azərbaycan ədəbiyyatı tarixində tənqidi realizmin və ictimai satiranın yaradıcılarından biri olan Qasım bəy Zakirin adını həmişə hörmətlə yad edir".*

***Süleyman Hüseynov***

## Kitabları

Təmsillər, hekayələr. - Bakı : Nurlar, 2021. - 80 s.

Təmsillər. - Bakı : Aspoliqraf, 2009. - 31 s.

## Haqqında kitablarda

**Kərimov R.** Qasım bəy Zakir və müasirləri. - Bakı : Elm və Təhsil, 2013. - 252 s.

**Məmmədova Ş.** Azərbaycan uşaq ədəbiyyatı antologiyası : 3 cilddə. I cild : Folklor və klassik uşaq poeziyası. - Bakı : ADPU, 2018. - 295 s. – S. – 155-167.

## Əsərləri dövrü mətbuatda

Dün hökm qıldı qətlimə ol şəh itab ilə ; Nola gər saxlar isəm təndə dilü cani əziz ;
Qadir Allah səbəb salıb arayə və b. : şeir // 525-ci qəzet. - 2022. - 18 may. - S. 23.

Gəlsin ; Dost yolunda cəfa çəkdim, can üzdüm : şeir // Azərbaycan : qəzet. - 2022. – 18 dekabr. - S. 10.

## Haqqında dövrü mətbuatda

**Baxşəliyev R.** Klassik ideyaların yaşarılığı // Azərbaycan müəllimi. – 1990. – 14 noyabr.

**Cəfərov İ.** Kaş bu günü görəydi... : Qasım bəy Zakir – 200 // Kommunist. – 1984. – 16 oktyabr. – S. 3.

**Cəfərov N.** Rus dilinin Qafqaza nüfuzu və Qasım bəy Zakirin rus leksikonu // Ədəbiyyat qəzeti. – 2014. – 24 fevral. – S. 5.

**Cəfərzadə Ə.** Q. B. Zakir və müasirlərinin bir neçə şeiri haqqında // Azərbaycan : qəzet // 1964. - № 2. – S. 217-221.

**Çəmənli M.** Satirik şeirimizin bayraqdarı : Qasım bəy Zakir – 230 // 525-ci qəzet. - 2014. - 2 avqust. - S. 14.

**Əsgərli Z.** Onun müasirləri : Qasım bəy Zakir – 200 // Kommunist. – 1984. – 16 oktyabr. – S. 3.

**Əzizov Ə.** Həyatın tələbi, vicdanın hökmü // Azərbaycan müəllimi. – 31 avqust. – 1984. – S. 4.

**Fərəcov S.** Qasım bəy Zakirin maarifçi dünyagörüşü // Mədəniyyət. - 2014. - 27 avqust. - S. 15.

**Fərəcov S.** Zakir dastanı // Mədəniyyət. – 2014. – 9 iyul. – S. 15.

**Fərəcova Z.** Mübariz ruhlu şair - Qasım bəy Zakir : Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır // Azərbaycan : qəzet. - 2021. - 24 avqust. - № 177. - S. 7.

**Hacıyev T.** Zakirin dili haqqında // Azərbaycan müəllimi. – 1984. – 17 oktyabr. – S. 3.

**Həkimoğlu İ.** Allahı zikr, mollaları tənqid edən, səfalət içində ölən ağa oğlu... : Böyük Cavanşirlər nəslinin şair oğlu // Yeni Azərbaycan. - 2022. - 23 fevral. - № 34. - S. 10.

**Hüseynov S.** Böyük satirik şair // Pioner. – 1984. - № 10. – S. – 3.

**Hüseynov S.** Zakirin əsərlərində adlar : Qasım bəy Zakir – 200 : Azərbaycan müəllimi. – 1984. – 12 oktyabr.

**Xəlilzadə F.** Sinəsi dağlı diyarın unudulmaz simaları // Azərbaycan : qəzet. – 2012. – 15 aprel. – S. 6.

**İlham Ə.** Analar doğubdur şiri-nər səni... : Qasım bəy Zakir - 200 // Kommunist. – 1984. – 16 oktyabr. – S. 3.

**Qocayeva A.** Böyük satirik Qasım bəy Zakir və onun maarifçilik fəaliyyəti // Azərbaycan : qəzet // 2009. – 4 avqust. – S. 5.

**Qocayeva A.** Böyük satirik Qasım bəy Zakir və onun maarifçilik fəaliyyəti // Azərbaycan : qəzet. – 2009. – 4 avqust.

**Qurbanov İ.** Şairin irsini tədris edərkən // Azərbaycan müəllimi. – 1984. – 17 oktyabr. – S. 3.

**Məmmədoğlu Ə.** Şair təsviri sənətimizdə // Ədəbiyyat və incəsənət. – 1984. – 12 oktyabr. - № 41. – S. 4.

**Məmmədov K.** Əsrin güzgüsü // Azərbaycan müəllimi. – 1984. – 17 oktyabr. – S. 3.

**Məmmədov K.** Qasım bəy Zakirin qəbrinin yeri // Ədəbiyyat və incəsənət // 1984. – 4 may. - № 18. S. – 6.

**Məmmədov N.** Realist sənətkar : Qasım bəy Zakirin anadan olmasının 200 illiyi // Azərbaycan : qəzet. – 1984. - № 4. – S. – 155-159.

**Məmmədov N.** Zakir və XIX əsr satirik şeirimiz // Ədəbiyyat və incəsənət. – 1984. – 28 sentyabr. - № 39. – S. 6.

**Məmmədov Ş.** Xalq sənətinə bağlı şair : Qasım bəy Zakir – 200 // Azərbaycan müəllimi. – 14 sentyabr. – S. 4.

**Məmmədov V.** Bahar nəfəsli sənətkar // Ədəbiyyat və incəsənət. – 1984. – 12 oktyabr. - № 41. – S. 5.

**Mirəhmədov Ə.** Vətəndaş şair : Qasım bəy Zakir - 200 // Kommunist. – 1984. – 16 oktyabr. – S. 3.

**Mustafayev M.** Cəsur süvari və söz sərrafı // Azərbaycan müəllimi. – 1984. – 17 ktyabr. – S. 3.

**Mustafayev M.** Cəsur süvari və söz sərrafı // Ədəbiyyat və incəsənət. – 1984. – 6 iyun. – S. 6.

O, xalqına xidmət etmişdir // Kommunist. – 1984. – 17 oktyabr.

**Salmanlı R.** Qasım bəy Zakir // Azərbaycan : qəzet. – 2022. – 18 dekabr. – S. 10.

**Sultanov M.** Zakirin gəncliyi // Ədəbiyyat və incəsənət. – 1984. – 19 oktyabr.

**Şükürov S.** Müasirlərin siqləti : Qasım bəy Zakirin anadan olmasının 200 illiyi qarşısında // Ədəbiyyat və incəsənət. – 1984. – 14 sentyabr.

**Vəfalı A.** Müasirimiz Zakir // Ədəbiyyat və incəsənət. – 1984. – 12 oktyabr. - № 41. – S. 4.

**Yaqubqızı R.** Qasım bəy Zakir: satirik şeirlər, təmsillər müəllifi // Respublika. - 2023. - 15 avqust. - № 172. - S. 9.

**Yusifli C.** Formanın müqəddəs sirri : ayrılan yollar // Ədəbiyyat qəzeti. - 2018. - 15 dekabr. - № 47/48. - S. 24-25.

**Tərtib etdi:** **Ağayeva İranə**